# "Sahibkarlar Günü"nə həsr olunmuş konfrans keçirilmişdir

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, aprelin 25-i ölkəmizdə "Sahibkarlar Günü" kimi qeyd edilir.





Bununla bağlı, aprelin 25-də İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə "Sahibkarlar Günü"nə həsr olunmuş konfrans keçirilmişdir. Tədbirdə aidiyyəti dövlət qurumlarının, beynəlxalq təşkilatların, xarici ölkələrin Azərbaycandakı ticarət palatalarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 300-dən çox sahibkar iştirak etmişdir.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmiş, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı da ziyarət edilmiş, abidəsi önünə çiçək dəstələri düzülmüşdür. Konfrans iştirakçıları həmçinin, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" kompleksinə əklil qoymuşlar.

"Sahibkarlar Günü"nə həsr olunmuş konfrans cəbhə xəttində baş vermiş son hadisələr zamanı şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Sonra Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev konfransı açıq elan edərək bildirdi ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər sayəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilmişdir.

Ulu öndərin atdığı qətiyyətli addım respublikanın bütün iqtisadiyyatının inkişafına təkan verdi. "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə, əldə olunan gəlirlərin bir hissəsinin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi qeyri-neft sahəsinin stimullaşdırılmasına gətirib çıxarıb.

Ümummilli lider sahibkarların problemləri ilə bilavasitə tanış olmaq üçün onlarla mütəmadi görüşlər keçirilməsinə və iş adamlarını hansı məsələlərin narahat etməsini onların öz dilindən eşitməyə xüsusi diqqət yetirirdi.

Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafına yeni mərhələ yaşanır. Ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan addımların sistemli və ardıcıl xarakter daşıdığını, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən son zamanlar imzalanmış sənədlərin, qəbul edilmiş qərarların sahibkarlığın inkişafına verilən böyük dəstəyin göstəricisi olduğunu vurğulamışdır. "Sahibkarlar Günü"nün təsis edilməsi münasibəti ilə sahibkarları təbrik edən Məmməd Musayev ölkə sahibkarlarının adından Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıq etdi, dövlət başçısının sahibkarlara göstərdiyi dəstəyin ölkə iqtisadiyyatında özəl sektorun rolunu daha da artıracağını bildirdi.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında "Sahibkarlar Günü"nün təsis olunmasının sahibkarların fəaliyyətinə verilən yüksək qiymətin, dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən böyük diqqət və qayğının növbəti göstəricisi olduğunu vurğulamışdır. Müstəqil Azərbaycanın memarı Heydər Əliyevin digər sahələrdə olduğu kimi, iqtisadiyyatın inkişafı istiqamətində gördüyü mühüm işlərdən danışan nazir Şahin Mustafayev ulu öndərin sahibkarlığın inkişafı ilə bağlı qəbul etdiyi taleyüklü qərarların özəl bölmənin formalaşmasında mühüm əhəmiyyətini qeyd etmişdir. Bildirilmişdir ki, Heydər Əliyevin 2002-ci il aprelin 25-də ölkə sahibkarları ilə keçirdiyi görüş sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olduğundan "Sahibkarlar Günü" də məhz aprelin 25-də təsis olunmuşdur. Diqqətə çatdırılmışdır ki, ümummilli liderin inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzinə, sahibkarlar isə iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. Səmərəli dövlət dəstəyi tədbirləri, o cümlədən vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parklarının və məhəllələrinin, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirici tədbirlər, biznes forum və sərgilərin təşkili və digər tədbirlər nəticəsində ÜDM-də özəl bölmənin payı 80 faizi, məşğulluqda isə 74 faizi ötmüş, ölkə iqtisadiyyatı şaxələnmiş, özünütəminat səviyyəsi yüksəlmişdir.

Aparılan iqtisadi islahatlar çərçivəsində biznes və investisiya mühitinin yaxşılaşdırılması tədbirlərindən danışan nazir Şahin Mustafayev dövlət başçısının iqtisadi islahatlar paketi çərçivəsində ötən ilin sonlarından etibarən sahibkarlığın inkişafı ilə bağlı verilmiş qərarların iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından strateji xarakter daşıdığını və sahibkarlığın inkişafı üçün yeni dövrün başlanğıcı olduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, sahibkarlıq subyektlərində aparılan yoxlamaların dayandırılması, lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, sahibkarların şikayətlərinə daha həssas yanaşılması məqsədilə Apelyasiya Şuralarının yaradılması, dövlət satınalmalarında şəffaflığın artırılması və ədalətli seçimin təmin olunması, investisiyanın təşviqi və s. özəl sektorun inkişafında xüsusilə əhəmiyyətlidir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə dövlət başçısının rəhbərliyi ilə son dövrdə ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, eləcə də bu sahədə aparılmış islahatlar və qəbul edilmiş qanunvericilik aktlarının önəmini vurğuladı.

Kənd təsərrüfatı naziri Heydər Əsədov çıxışında aqrar sahədə sahibkarlığın inkişafından danışmış, Azərbaycan dövlətinin daim, xüsusilə də yeni iqtisadi şəraitdə sahibkarlara dəstəyini davam etdirdiyini bildirdi.

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev sahibkarların işinin asanlaşması üçün gömrük sahəsində son zamanlar aparılan islahatlardan danışdı.

Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov isə sahibkarlığın inkişafı istiqamətində son zamanlar həyata keçirilən tədbirlər barədə məlumat verdi.

Beynəlxalq Maliyyə Korporasiyasının ölkə üzrə direktoru Aliyə Əzimova təşkilatın qeyri-neft sektorunun inkişafına və sahibkarlığın dəstəklənməsinə göstərdiyi investisiya və məsləhət xidmətləri barədə məlumat verib özəl bölmənin daha da inkişaf etdirilməsinə dair təkliflər səsləndirdi.

Konfransda çıxış edən sahibkarlar - "Azersun Holdinq" MMC-nin prezidenti Abdulbari Goozal, Azərbaycan Banklar Assosiasiyası İdarə Heyətinin sədri Zakir Nuriyev, "Karat Holdinq" MMC-nin direktoru Taleh Qasımov, "Gilan" Holdinq MMC-nin baş direktoru Cəmil Muradov, "NEON" firmasının baş direktoru Arif Həsənov, "Mətanət A" şirkətinin direktoru Elxan Beşirov, Azərbaycan Mikromaliyyə Assosiasiyasından Jalə Hacıyeva, Azərbaycandakı Amerika Ticarət Palatasından Natavan Məmmədova, "Sosiete Generale" şirkətinin Azərbaycan və Qazaxıstan nümayəndəliklərinin rəhbəri Teybə Quliyeva, ATİB-in İdarə Heyətinin sədri Cemal Yangin, "Norm" MMC-nin baş kommersiya direktoru Fuad Musayev, "Veysəloğlu" MMC-nin direktoru Aydın Talıbov, Türk-Amerikan Medikal Center Tibb Mərkəzinin direktoru Ramiz Əliyev, KPMG şirkətinin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Vüqar Əliyev, "Embawood" MMC-nin baş direktoru Elşad Abbasov, "Atropatena" MMC-nin baş direktoru Elşad Rəsulov və beynəlxalq təşkilatların nümayəndələri Azərbaycan Prezidentinin sahibkarlara daim dəstək göstərdiyini, sahibkarlıq sahəsində həyata keçirilən islahatları və qəbul edilmiş hüquqi aktları böyük razılıqla qarşıladıqlarını bildirmiş, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğıya, həyata keçirilən çoxsaylı dəstək tədbirlərinə, "Sahibkarlar Günü"nün təsis edilməsinə görə dövlət başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

Sonra özəl bölmənin inkişafı perspektivləri ilə bağlı müzakirələr aparılmışdır.

Tədbirin sonunda ölkə sahibkarları adından Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul edilmişdir.

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nə həsr olunmuş konfransda iştirak edən sahibkarların

## MÜRACİƏTİ

*Möhtərəm cənab Prezident!*

*Müasir Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və Sizin tərəfinizdən böyük müdriklik və uzaqgörənliklə davam etdirilən ölkəmizin inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi tədbirləri iş adamlarını yeni-yeni istehsal və xidmət sahələrinin yaradılması istiqamətində irihəcmli layihələr həyata keçirməyə həvəsləndirir, bununla da ölkənin sosial-iqtisadi inkişafına sahibkarların töhfəsi artır.*

*Məhz 2002-ci il aprel ayının 25-də ümummilli liderin iş adamları ilə keçirdiyi görüşlərin nəticəsi olaraq qəbul edilmiş dövlət proqramı, imzalanmış bir sıra mühüm fərmanlar və qəbul edilmiş qərarlar ölkədə sahibkarlığın inkişafına təkan vermişdir.*

*Sizin rəhbərliyinizlə aparılan genişmiqyaslı işlərin nəticəsidir ki, son illərdə iqtisadiyyatın artımı qeyri-neft sektoru hesabına təmin edilir. Qeyri-neft sektorunun inkişafında Sizin müəyyənləşdirdiyiniz kimi, aparıcı qüvvə məhz sahibkarlıqdır. Bu strateji xəttinizə uyğun olaraq, ölkəmizdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi üçün sistemli işlər görülür.*

*Xüsusilə son dövrlərdə Sizin təşəbbüsünüzlə yoxlamaların iki il müddətinə dayandırılması, lisenziyaların və icazələrin sayının minimuma endirilməsi, onların verilməsi prosedurlarının asanlaşdırılması və şəffaflaşdırılması, investisiyaların və ixracın təşviqi, sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsi və digər mühüm qərarlar sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur.*

*Bu siyasətin davamı olaraq, 21 aprel 2016-cı il tarixli sərəncamınızla hər il aprelin 25-i tarixinin Azərbaycan Respublikasında "Sahibkarlar Günü" kimi qeyd edilməsi barədə qərarınız sahibkarlığın inkişafına ən yüksək səviyyədə göstərilən diqqət və qayğının növbəti bariz nümunəsi olmaqla bərabər, sahibkarların cəmiyyətdəki nüfuzunu daha da artıracaqdır.*

*Möhtərəm cənab Prezident!*

*Biz, Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nə həsr olunmuş konfransda iştirak edən sahibkarlar Sizi əmin edirik ki, sahibkarlara göstərdiyiniz böyük diqqət və qayğıya əməli işimizlə cavab verəcək, öhdəmizə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaratdığınız əlverişli şəraitdən geniş istifadə edərək bütün qüvvə və bacarığımızı müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və çiçəklənməsi üçün səfərbər edəcəyik.*

***Müraciət 25 aprel 2016-cı il tarixində keçirilmiş Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nə həsr olunan konfransda qəbul edilmişdir.***